**Azərbaycan Xalq Paramentinin Rəyasət Heyəti,**
**21.01.2025**

Hər vaxtınız xeyir, hörmətli Deputatlar!

Azərbaycan Xalq Parlamenti (AzXP) son 30 illik dönəmində Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycan xalqının iradəsi ilə seçilən ən legitim nümayəndəli orqandır. AzXP qarşısında Azərbaycan xalqının hazırda içində yaşadığı problemləri ən azı qanuni, sivil, açıq və hamı üçün başa düşülən formada yazılı şəkildə ifadə etmək kimi müqəddəs bir vəzifə dayanır.

Buna görə də:

1) AzXP-nin ümumi qrupunda bütün dedi-qodular dərhal dayandırılmalıdır;

2) AzXP özünün Nizamnaməsi ilə üzərinə götürdüyü işlərlə məşğul olmağa başlamalıdır.

AzXP daxilində artıq İntizam Komissiyası seçilib və fəaliyyət göstərir. Millət vəkillərinin bir-birinə iddiaları, pretenziyaları, tələbləri ümumi qrupda deyil, İntizam Komissiyasına müraciət etməklə yoluna qoyulmalı, tənzimlənməlidir. Ümumi Qrupda isə AzXP qarşısaında duran məqsəd vəzifələr müzakirə edilməli və qərar, bəyanat, mövqe və digər formada layihə şəklində irəli sürülməli, qrup halında bu layihələr müzakirə edilməli və həftə sonu baş tutan AzXP məclisinin (sessiyasının) gündəliyinə çıxarılmalıdır.

Məlumat üçün bildiririk ki, AzXP-nin strukturlarını formalaşmasıla bağlı irəli sürülən təkliflər üzərində Nizamnamənin Redaksiya Komissiyası işləyir. Görünən odur ki, bu məsələ gələn həftəyə qədər çəkəcək. Odur ki, AzXP-nin bu həftə sonu (25.01.2025-ci il tarixli) növbəti məclisi Azərbaycan xalqının iqtisadi və sosial problemlərin müzakirəsi mövzusuna həsr olunacaqdır. Bu sırada aşağıdakı daha ciddi məsələlərin adlarını çəkmək olar:

1) Ölkənin quru sərhədlərin bağlı olması haqqnda;

2) Dövlətin uşaqlara qayğı siyasəti haqqında;

3) Şəhid və qazilərimizin problemləri haqqında;

4) Ölkədə polis özbaşnalıqları haqqında;

Hörmətli millət vəkilləri,

AzXP Rəyasət Heyəti Sizlərdən xahiş edir ki, bu dörd blok məsələ ilə bağlı alt qruplarda (kim özünü hansı blok məsələdə daha faydalı hesab edirsə) birləşin, müvafiq bəyanat, mövqe sənədi və ya digər formalarda layihələri hazırlayın.

Hazırlanan sənədlər AzXP-nin həftə sonu məclisində müzakirəyə çıxarılacaq və barələrində müvafiq qərarlar qəbul ediləcək.

Təcili olaraq bütün dedi-qodular dayandırılmalıdır və öz işimizə fokuslanmalıyıq. Biz yalnız bu formada irəli gedə bilər, AzXP qarşısıda duran məqsədlərə addım-addım yaxınlaşa bilərik.

Hörmətlə,

AzXP Rəyasət Heyəti